UOT 93/99.737

# GÜRCÜ ALİMLƏRİNİN ƏSƏRLƏRİNDƏ AZƏRBAYCAN NUMİZMATİKASI

**M.İ.VƏLİYEVA**
***AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu***
***aylin70@mail.ru***

*Məqalədə iyirminci əsrdə dünyada baş verən çox önəmli siyasi dəyişikliklər sayəsində yeni yaranan imperiyalardan olan SSRİ-nin tərkibinə ayrıca respublikalar kimi daxil edilən keçmiş dövlətlərdə, demək olar ki, elmin bir çox sahələrinin yaranması və inkişafına xüsusi olaraq diqqət yetirilmişdir.*

*Qısa tarixə qadir olan numizmatika-sikkəşünaslıq başqa elm sahələriylə bərabər bu respublikalarda dövlət səviyyəsində öyrənilməyə başlandı. O cümlədən, Cənubi Qafqaz ölkələrindən biri olan Gürcüstan Respublikasında da, xüsusilə, bu elm inkişaf etməyə başladı.*

**Açar sözlər:** gürcü alimləri, numizmatik abidələr, arxeoloji qurultay, pul nominalı

Hələ XVIII əsrdən etibarən gürcü numizmatik abidələrinin öyrənilməsinə başlanılmışdı. Adler J. tərəfindən ilk belə sikkələr 1782-ci ildə digər Şərq sikkələri sırasında çap olunurdu [1]. Əslində, hələ XIX əsrin sonlarından başlayaraq, çar Rusiyası tərəfindən Qafqazın işğalı zamanı bu ərazinin həm elmi, həm də mədəni paytaxtı olan Tiflisdə vaxtaşırı arxeoloji qurultaylar keçirilirdi. O cümlədən, 1871-ci ildə Gürcüstanda Qafqaz Arxeoloji Komitəsinin yaradılması arxeoloji abidələrə, əsasən, maddi mədəniyyət qalıqlarına marağı daha da artırmışdır.

1881-ci ildə Tiflisdə çağırılmış V Arxeoloji qurultayın qərarlarından sonra bu maraq çox böyük bir çevrəni əhatə etmiş əcnəbilərin Qafqaza gəlişini xüsusilə artırmışdır. Qafqazın tarixi-arxeoloji abidələrinin öyrənilməsinə, əsasən, öz şəxsi maraqları, həm də aid olduqları dövlətlərin marağı baxımından, yanaşanlar içərisində xaricilərlə birlikdə yerli gürcü mənşəli insanlar da vardı. İkinci mühüm addım, Moskva Arxeoloji Cəmiyyətinin Qafqaz şöbəsinin yaradılması ilə 1901-ci ildə atıldı. Yenə də mərkəzi Tiflisdə təşkil olunan bu şöbə abidələrin tədqiqi işində önəmli rol oynadı. O cümlədən, aparılan bəzi qazıntıların nəticələri 1906-cı ildə Sankt-Peterburqda “İmperator Arxeoloji Komissiyasının hesabatlarında” nəşr edilmişdir. Burada Azərbaycan ərazisində tapılan nadir maddi-mədəniyyət qalıqları haqqında da məlumatlar mövcuddur [12].

Qeyd edək ki, Gürcüstanda numizmatika elminin yaranması və təkamülü birbaşa olaraq, bu illərlə bağlıdır. İyirminci illərdə Gürcüstanın sovet imperiyasının tərkibinə daxil olmasıyla, demək olar ki, bu işlər daha da genişmiqyaslı oldu. Azərbaycanda numizmatika elminin yaranması və inkişaf etməsi birbaşa məhz Gürcüstan ilə əlaqədardır.

Bildiyimiz kimi, Azərbaycanda numizmatika elminin təməlini qoyan rus alimi Yevgeni Aleksandroviç Paxomov elmi fəaliyyətinə ilk dəfə Tiflisdə başlamasına baxmayaraq, sonralar Bakıya göndərilmiş, burada numizmatika ilə dərindən məşğul olmuşdur. Onun əsərlərində Azərbaycanla yanaşı, həmçinin, Gürcüstan ərazisindən də tapılan sikkə və sikkə dəfinələri haqqında geniş qeyd edilir. "Azərbaycan sikkələri" [19] adlı əsərində alim Rusiya və Gürcüstanda mövcud olan Azərbaycan sikkələri barəsində ətraflı qeydlər edir. Professor ilk dəfə olaraq, Azərbaycan numizmatikasının öyrənilməsi üçün gürcü mənbələrindəki məlumatları, eyni zamanda, muzeylərdə saxlanan, şəxsi kolleksiyalara aid olan nominallar barəsində də qeydlər etmişdir [13, 14, 15, 16, 17, 18].

Onu da qeyd etməliyik ki, Azərbaycan numizmatikasına gürcü alimlərinin xüsusi maraq göstərməsində Y.A.Paxomovun çox böyük rolu olmuşdur. Keçən yüzilliyin 50-70-ci illərindən etibarən, bu işlər daha da geniş miqyas almağa başlayır. Sözsüz ki, buna səbəb hər iki dövlətin qədim tarixə malik olaraq minilliklərlə bir çox siyasi hadisələrə, işğallara məruz qalmaları, məkan baxımından, eyni yerdə qonşuluq münasibətində olmaları, bu səbəbdən də oxşar məqamlara hər bir sahədə, o cümlədən, sikkə zərbi, pul işində malik olmaları idi. Gürcüstanda Y.A.Paxomovdan başqa, numizmatika elminin inkişafında, demək olar ki, eyni vaxtda, yəni keçən əsrin 20-40-cı illərindən etibarən bir çox görkəmli alimlər fəaliyyət göstərmişlər. Bunlardan A.N.Zoqraf, D.Q.Kapanadze, K.V.Qolenko, İ.O.Şengeliya, S.İ.Makalatiya, O.D.Lordkipanidze, M.İ.İnadze, S.M.Şamba, İ.L.Çalaqaniya, Q.F.Dundua, T.S.Kuteliya və bir çox adlarını çəkmədiyimiz alimləri də misal göstərmək olar.

A.N.Zoqrafin əsərlərində bütün Qafqaz ərazisində antik dövrdə zərb olunan və digər ölkələrdən daxil edilən sikkələri eyniləşdirmək barəsində fikirlər bu günə qədər numizmatika elmində öz dəyərini itirməmişdir [7].

Zaman keçdikcə yeni dəyərli arxeoloji maddi mədəniyyət qalıqları sırasında tapılan numizmatik materiallar alimin bu fikrinin reallığa uyğun olmadığını göstərdi. Belə ki, XX əsrin ikinci yarısından başlayaraq, həm gürcü, həm də Azərbaycan alimləri, əsasən, apardıqları ciddi elmi araşdırmalar nəticəsində antik dövrdə Gürcüstan və Azərbaycan ərazisində fərqli və ya ən vacibi yerli "bənzətmə" sikkələrlə yanaşı, siyasi hadisələrlə əlaqədar olaraq müəyyən fərqli sikkə nominallarından istifadə olunduğunu üzə çıxardılar. Bu qəbildən artıq 1970-1980-ci illərdən konkret olaraq gürcü alimləri "kolxidka" adlı pul nominalının Qərbi Gürcüstanda zərb yerini və yayılma arealını, Şərqi Qara dəniz sahillərində yunan şəhər-dövlətlərində həmin pulların dəyər vahidinin öyrənilməsi, Gürcüstanda "bənzətmə" sikkələrin hüquqi əsasının öyrənilməsi və ya bununla da Qafqazda digər dövlətlərlə müqayisədə bu sikkələrin dövriyyədəki və yaxud ticarət-iqtisadi münasibətlərindəki rolu kimi çox önəmli

məsələləri öyrənmək vəzifələrini həyata keçirməyə başladılar.

Eyni zamanda, Azərbaycan ərazisində də Makedoniyalı İsgəndərin sikkələrinə “oxşatma” nominallarının Albaniyada vurulması, hüquqi statusu, dəyəri, ikonoqrafik cəhətləri öyrənilməyə başlandı.

Beləliklə də, həm gürcü, həm də Azərbaycan alimlərinin elmi nəticələri aşağıdakılardan ibarət oldu.

I. Qafqazda antik dövrdə b.e.ə. IV – b.e. III əsrlərində pul işi və sikkə zərbinin tarixi iki mühüm dövrə bölünür.

1) Ellinizm dövrü – b.e.ə. IV əsrin sonlarından – b.e.ə. I əsrə qədər.

2) b.e.ə. I əsrin ortalarından – eranın III əsrinin ortalarına qədər.

Gürcü alimlərindən M.P.İnadzenin Kolxidada stabil yerli didraxma adlı pul nominalının – b.e.ə. VI əsrdən mövcudluğu ehtimalı heç bir faktoloji materiallarla özünü doğrultmadığından yuxarıda göstərilən xronoloji çərçivə bütövlükdə Qafqaza aid edilir.

Gürcü alimlərinin əsərlərində Ellinizm dövrünün pullarına elmi baxış ayrı-ayrı zamanlarda fərqli olmuşdur. Belə ki, əgər əsrin 20-40-cı illərində həm Y.A.Paxomov, həm də A.N.Zoqraf bu dövrün sikkələrini Qafqaz və ya “xüsusi Qafqaztipli” adlandırırdılarsa, sonralar D.Q.Kapanadze tamamilə bu məfhumdan numizmatika elmində imtina etmiş və sübut üçün belə “bənzətmə” sikkələrin Abşerondan Tamana qədər zərb edildiyini və ya aşkara çıxarıldığını qeyd edirdi [9].

Eynilə Albaniya ərazisində Makedoniyalı İsgəndərin adından zərb olunan pullarla birlikdə, konkret olaraq Ordubadda və Bərdədə aşkar edilən, Selevkilərin Kiçik Asiyadakı Kim şəhər zərbinə aid nominallar və ya digər tapıntılar burada b.e.ə. IV-III əsrlərdə pul dövriyyəsi məfhumunun olduğunu sübuta yetirmişdir.

B.e.ə. II-I əsrlərdə baş verən siyasi hadisələr sayəsində Romanın güclənməsi və Şərqə ekspansiyası, sözsüz ki, Qafqazda da qüvvələr nisbətini dəyişdi. Bu zaman, əsasən, Kolxidada yunan-Roma tipli pullar zərb edilmişsə də, onlar Azərbaycan ərazisində geniş yayılmamışdır. Buna səbəb Albaniyanın Romaya qarşı güclü müqaviməti və nominal müstəqilliklərini saxlamaqları idi. Bir çox gürcü alimlərinin fikrinə əsasən, “Romanın Respublika dinariləri Pompeyin Qafqaza yürüşləri ilə əlaqədar qoşunlar tərəfindən bura gətirilmişlər. Əsas istiqamət Cənubdan, Pont tərəfdən olmuşdur” [5].

Eyni vaxtda Şərqi Gürcüstanda – İberiyada, əsasən, Parfiya pulları, dövriyyədə olsalar da, bu pullar əsas hüquqi statusa malik olmuşlar. Gürcü alim-numizmatı T.Y.Abramaşvilinin kitabına əsaslanan Azərbaycan alimləri müqayisələr apararaq belə bir interaktiv cədvəl tərtib etmişlər.

| | B.e.ə. III əsr. | B.e.ə. II əsr. | B.e.ə. I əsr | Eramızın II əsri |
|---|---|---|---|---|
| Gürcüstan | | 5 | 110 | 157 2 |
| Albaniya | 3 | 60 | 144 | 118 2 |

Əgər Parfiya pul nominalları “Xəzər dənizinin cənub-qərb istiqaməti ilə Azərbaycan və Ermənistana, oradan da Kür çayı vasitəsilə Gürcüstana” çatmış-

dırsa, deməli, Azərbaycan birbaşa Parfiyanın təsiri altında olmuşdur [8].

Bəzi gürcü alimləri sonralar bu fikri qəbul etməyərək tapıntılara əsasən, iddia edirlər ki, Sarnakunkdan tapılan və tərkibində 373 ədəd pul nominalı olan dəfinədə Parfiya pulları say hesabı ilə çoxluq təşkil edir. Eynilə Aqayan qəbir abidəsindən də aşkar edilən pul nominalları Parfiyanın ayrı-ayrı hökmdarlarına aiddir. Belə ki, "əgər aşkar edilən bu materiallar qonşu ölkələrdən tapılan eyni nominallarla, daha dəqiq desək, Qərbi Gürcüstan, Albaniya və Ermənistan tapıntıları ilə analoq təşkil edirlərsə, onda daha çox bu pulların sonuncudan tapılanlarla oxşarlığı aşkar olunur" [11].

Həmin dövrün ticarət yolları üçün çox dəyərli mənbə olan Roma coğrafiyaçısı İ.Kastoriy tərəfindən eramızın IV əsrindən tərtib olunan və tarix elmində daha çox "Tabula Peutinqera" adı ilə tanınan yol xəritəsində bu pulların yayılma arealı bu cür olmuşdur: Dilican dərəsi – Ağstafa-Qazax-Rustavi-Tiflis-Msxeta [10].

Bu əsas yol Qərbi Azərbaycanın qədim şəhərlərindən biri olan Artaşatdan keçərək İberiyada – Msxetdə sona yetir. İkinci mühüm strateji magistral xətt Qara dəniz sahillərindən Hindistana qədər uzanan həm su, həm də quru yoldur. Eyni ticarət yolunu Strabon da qeyd etmişdir. Belə ki, bu məşhur yunan coğrafiyaşünası və tarixçisinin fikrincə, Roma hökmdarı Qney Pompey məhz bu yolla qoşunların İberiyaya daxil olduğunu qeyd etmişdir [22].

Eyni yolla Qafqaza Baktriya və Soqde nominalları da daxil olmuşlar. Albaniyanın ərazisindən keçən bu yol "Transqafqaz tranzit" xarakteri daşıdığını sübuta yetirir.

Bununla da bəzi gürcü alimlərinin eramızın əvvəllərində Gürcüstanın Yunan – Romanın, Albaniyanın, daha çox Parfiyanın təsiri altında olması fikri özünü təsdiqləmir. Buna əsas sübut numizmatik materiallardır. Belə ki, əgər yalnız İberiyadan tapılan Parfiya pullarının cəmi 134 ədəddirsə, onlardan 119-u – Orodun hakimiyyəti illərini bildirir, 16 ədədi IV Fraatın adından zərb edilmiş, Romanın dinariy adlı respublika dövrü pullarının sayı isə 12 ədəddir [6].

Mötəbər mənbələrdən sayılan yunan alimi Plutarxın fikrincə, b.e.ə. 69-cu ildə romalılara qarşı albanların əsas müttəfiqlərindən biri iberlər olmuşlar. Beləliklə, Şərqi Gürcüstan – İberiyada və Albaniyada da adı çəkilən zaman kəsiyində əsas ticarət əlaqələrində Parfiya nominallarından istifadə olunduğu bir daha sübut edilir [21].

Digər maraqlı fakt ondan ibarətdir ki, Gürcüstanda bu zaman vurulan "kolxidka" adlı pullar demək olar ki, Azərbaycan ərazisindən tapılmamışdır. Eynilə Albaniyada zərb olunan yerli sikkələr Gürcüstanda da olmamışdır. Ehtimal edirik ki, hər iki pul nominalı yalnız ölkədaxili bazarları təmin etdiyindən sərhədlərdən kənarda onlar aşkar edilməyib. Gürcü alimlərinin Azərbaycan numizmatika elminin inkişafı üçün əsas dəyərli fikirlərindən biri də Qafqazda Makedoniyalı İsgəndərin adından zərb olunan tetradraxma pul vahidlərinin "bənzətmə"ləridir. Eyni vaxtda "Sinxron olaraq Gürcüstanda İsgəndərin və Lisimaxın adından vurulan staterlərə bənzər gürcü bənzətmə

pulları dövriyyədə iştirak etmişlər” [6].

Lakin hələ də bu bənzətmə, “fenomen” sikkələrin dəqiq zərb edilmiş tarixi bilinmir. Bununla belə İsgəndərin adından kəsilən sikkələrin həm onun sağlığında, həm də ölümündən sonra bütün imperiyada dövriyyədə olmaları faktını nəzərə alsaq, ehtimal etmək olar ki, e.ə. III əsrdən “bənzətmə” nominalların zərbinə tələbat bir çox ərazilərdə artmışdır. Belə “bənzətmə” pullar dövriyyədən e.ə. I əsrin II yarısından etibarən çıxır, buna konkret səbəb Parfiya pullarının Qafqazda əsas pul vahidi kimi istifadə edilməsidir. Bununla da keçən əsrin 60-cı illərinədək (e.ə. 69-65-ci illər) Qafqazın göstərilən yüzilliklərdə, əsasən, Albaniya istisna olmaqla Romadan tam nominal olaraq asılı olması fikri özünü doğrultmur [2].

Antik dövrdə müasir Şimali Azərbaycanın ərazisində yaranan ilk dövlət Albaniya olmuşdur. Ellin dövrünün bir çox mütərəqqi alimləri öz əsərlərində bu dövlətin mövcudluğu, onun təbii-coğrafi şəraiti, əhalisi, bəzi adət-ənənələri haqqında məlumat vermişlər. Numizmatika elmi üçün maraqlı fikir yunan coğrafiyaşünası Strabona aiddir. Onun çoxcildli əsərinin tərcüməsinin tədqiqatı zamanı keçən əsrin ikinci yarısında belə bir fikir formalaşmışdır ki, Albaniyada yaşayan əhali 100-dən artıq saya bilmir və pul tanımırlar [3, 52, 4].

XX əsrin ortalarından başlayaraq, Cənubi Qafqazda aparılan arxeoloji qazıntılar nəticəsində bir çox yeniliklər sırasında, həmçinin, Albaniyada pul vurulmasının mövcudluğunu təsdiq edən dəlillər də ortaya çıxmışdır. Alimlər tərəfindən e.ə. I əsr – eramızın III əsrinin Albaniyanın tarixində çox mürəkkəb bir zaman kəsiyinin olduğu hələ XX əsrdə təsdiq olunmuşdur. Belə ki, bu vaxt bir tərəfdən Roma, digər tərəfdən Parfiya imperiyası Albaniyanı işğal etmək üçün öz aralarında kəskin mübarizə aparırdılar. Tarixin siyasi hadisələrini təkrar etmədən onu bildirmək lazımdır ki, Albaniyanın Roma və Parfiyadan asılılığını yalnız numizmatik materiallar əsasında öyrənmək mümkün olmuşdur.

Albaniyanın Romadan asılılığı qısamüddətli oldu və yalnız nominal xarakter daşıdı [20, 153-155].

**ƏDƏBİYYAT**


1. Adler J. Museum Cuficum Borgianum Velitris Plates by Carmida. Fol.Eomse, 1782, 55 p.
2. Амиранишвили А.И. Иберия и Римская экспансия в Азии // Вестник древней истории. М., 1938, №2, с. 171-174.
3. Арриан. Объезд Эквинского Понта (перевод П.И.Прозорова) // Вестник древней истории. 1948, №3, с. 391-401
4. Бабаев И.А. Города Кавказской Албании в IV в до н.э. III в н.э. Баку: Элм, 1990, 234 с.
5. Голенко К.В. Денежное обращение Колхиды в римское время. Ленинград: Изд-во гос. Эрмитажа, 1964, 109 с.
6. Дундуа Г.Ф. Монетное дело и денежное обращение в Грузии в античную эпоху (IV в. до IV н.э.). Автореф. д. и. н. Тбилиси, 1982, 25 с.
7. Зограф А.Н. Античные золотые монеты Кавказа // Известия Государственного Академического Института Материальной Культуры, вып. 110. М.-Л.: Наука, 1936, с. 178-191.

8. Зограф А.Н. Распространение находок античных монет на Кавказе // Труды отд. Нумизматики гос. Эрмитажа, т. I, Ленинград: 1945, с. 29-86
9. Капанадзе Д.Г. К вопросу об экономических связях Северного и Восточного Причерноморья в античную эпоху по нумизматическим данным // Проблемы истории Северного Причерноморья в античную эпоху. М.: Академия Наук СССР, 1959, с. 139-151.
10. Ломоури Н.Ю. К вопросу о торговых путях Грузии // Труды Института истории Академии Наук Груз. ССР, т. 4. Тбилиси: 1958, с. 117-118
11. Мушегян Х.А. Монетные клады Армении. Ереван: Изд-во АН Армянской ССР, 1973, 184 с.
12. Отчет императорской Археологической Комиссии за 1906 г. Санкт-Петербург, 1906, 177 с.
13. Пахомов Е.А.Монетные клады Азербайджана и других республик, краев и областей Кавказа. Баку: Академия Наук Азербайджанской ССР, 1926, вып. 1, 100 с.
14. Пахомов Е.А.Монетные клады Азербайджана и других республик, краев и областей Кавказа. Баку: Академия Наук Азербайджанской ССР, 1938, вып. II, 102 с.
15. Пахомов Е.А.Монетные клады Азербайджана и других республик, краев и областей Кавказа. Баку: Академия Наук Азербайджанской ССР, 1940, вып. III, 92 с.
16. Пахомов Е.А.Монетные клады Азербайджана и других республик, краев и областей Кавказа. Баку: Академия Наук Азербайджанской ССР, 1949, вып. IV, 114 с.
17. Пахомов Е.А.Монетные клады Азербайджана и других республик, краев и областей Кавказа. Баку: Академия Наук Азербайджанской ССР, 1954, вып. VI, 92 с.
18. Пахомов Е.А.Монетные клады Азербайджана и других республик, краев и областей Кавказа. Баку: Академия Наук Азербайджанской ССР, 1957, вып. VII, 124 с.
19. Пахомов Е.А.Монеты Азербайджана. Баку: 1959, вып. 1, 79 с.
20. Pirquliyeva Q.Ə. Şərqin bank işi tarixindən (numizmatik materiallar əsasında) // AMEA-nın Azərbaycan Arxeologiyası və Etnoqrafiyası. 2010, №1, s. 153-155
21. Плутарх. Избранные жизнеописания. М.: Правда, 1987, т. 2, 605 с.
22. Страбон. География в 17 книгах. Книга. IX. Ленинград: Наука, 1964, с. 371-420.

## АЗЕРБАЙДЖАНСКАЯ НУМИЗМАТИКА В ТРУДАХ ГРУЗИНСКИХ УЧЕНЫХ

**М.И.ВЕЛИЕВА**

### РЕЗЮМЕ

В статье рассматривается история создания основ изучении нумизматических материалов на территории Грузии. Становится ясным, что начиная с 18 века ученые – историки начали более внимательно относиться к этим материальным остаткам и вплотную заняться историей денежного обращение. В трудах грузинских ученых имеется также некоторые научные выводы по поводу денежного рынка и обращения Азербайджанских государств. Для нумизматической науки нашей страны эти данные по сей день остаются в силе.

**Ключевые слова**: грузинские ученые, нумизматические памятники, археологические конвенции, денежная стоимость

## AZERBAIJANI NUMISMATICS IS IN WORKS OF GEORGIAN SCIENTISTS

**M.I.VALIYEVA**

**SUMMARY**

The article analyzes the history of the creation of the bases of the study of numismatic materials on the territories of Georgia. It appears that since the XXIII century the historians have paid a more careful attention to these material pieces. The works of Georgian scientists include some scientific conclusions concerning the money market and circulation of the Azerbaijanian states. These data are still effective for the numismatics of our country.

**Key words**: Georgian scientists , numismatic monuments , archaeological convention, the cash value